# "Biz bu gün tarixi ədaləti bərpa edirik"

*Bu gün Azərbaycan Ordusunun şəxsi heyəti ata-babalarımızdan bizə yadigar qalan Vətəni erməni hərbi birləşmələrindən azad etməklə, hərb tariximizin yeni səhifəsinin qızıl hərflərlə yazılmasına öz töhfəsini verir. Artıq Azərbaycan xalqının milli maraqları naminə Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut, Suqovuşan, Qubadlı və onlarla yaşayış məntəqələrimiz azadlığına qovuşub. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan əsgəri xalqımıza sevinc bəxş etmək ərəfəsindədir. Döyüşlərdə qazanılan uğurlar qələbə ruhunun səviyyəsi kimi yaşanılır. Döyüşlərin iştirakçılarının təəssüratlarını dərc edirik.*

**"Azərbaycan Ordusu"**

**Zabit Vəli Əliquliyev:**

- Torpaq - Vətən deməkdir, Vətənin rəmzi - bayraqdır. Bayraq dövlətin və xalqın kimliyinin, düşüncə tərzinin və mənəvi dünyasının görünən ən şəffaf və dəqiq meyarıdır. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Üçrəngli bayrağımızı işğaldan azad edilən torpaqlarımıza



sancanların sırasında olmaq qürurvericidir. İllərdir həsrətində olduğumuz əzəli torpaqlarımıza sancılan möhtəşəm bayrağımızın kölgəsində dayanıb Xankəndinə, Şuşaya, Qarabağa baxıram. Tarixi torpaqlarımız Azərbaycan Ordusunu, Azərbaycan əsgərini səsləyir və gözləyir. Biz artıq uğrunda qanlar axıdıb, şəhidlər verdiyimiz əbədi torpaqlarımızın gözünü yolda qoymayacağıq. İşğalda olan bütün torpaqlarımızı azad edərək xalqımızı Böyük Qələbə ilə müjdələyəcəyik. O günə çox az qalıb.

Cəbrayılda, Füzulidə, Suqovuşanda, Zəngilanda, Xudafərində, Qubadlıda dalğalanan bayraqlar ordumuza böyük ruh yüksəkliyi yaşatmaqdadır. Tələsirik. Elə o sevgi, o sevinclə tələsirik. Əcdadlarımızın xeyirduasını almağa, şəhidlərimizin nigaran ruhlarını rahatlığa qovuşdurmağa, ağsaqqal-ağbirçəklərimizin, qız-gəlinlərimizin, körpələrimizin qisasını almağa tələsirik. Ən uca zirvələrdə tonqallar qalamağa, qələbələr müjdələməyə tələsirik.

Bizim güclü ordumuz, vətənpərvər, qorxubilməz döyüşçülərimiz var. Bu haqq savaşında Qələbə bizimdir. Qarabağ Azərbaycandır!

**Əsgər Ceyhun İsayev:**

- Rəşadətli ordumuz xalqımızı, millətimizi ard-arda sıralanan qələbə xəbərləri ilə müjdələməkdədir. Qoşunlarımız bütün cəbhə boyu əks-hücum əməliyyatlarını uğurla davam etdirir. Əzəli və əbədi torpaqlarımızı azad edən rəşadətli ordunun əsgəri olmaq qürurvericidir. Azərbaycan Ordusunun şəxsi heyəti döyüş tapşırığını layiqincə yerinə yetirir və bunun üçün bütün imkanlara malikdir. Uğur qazandığımız döyüşlər, işğaldan azad etdiyimiz ərazilər bunu bir daha sübut edir.

Sentyabrın sonundan başlayan Vətən müharibəsində bölmələrimiz yüksək döyüş və mənəvi-psixoloji hazırlıq nümayiş etdirir. Düşmənin döyüş texnikalarını, canlı qüvvəsini məhv edən ordumuzun şəxsi heyəti əsl qəhrəmanlıq sergiləyir. Azərbaycan Ordusunun şanlı hərb tarixində bu döyüşlərin xüsusi yeri olacaq. Belə bir döyüşlərdə iştirak etməyimlə fəxr edirəm.

Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü mənim üçün hər şeydən yüksəkdə durur. Xalqımız müqəddəs amal uğrunda xidmət edən bütün mərd oğulları ilə qürur duyur, bu yolda qəhrəmancasına şəhid olan igid övladlarının xatirəsini daim ehtiramla yad edir.

İnanıram ki, bu haqq savaşında rəşadətli ordumuz tezliklə ərazi bütövlüyümüzü bərpa edəcək. Şanlı ordumuzun Cəbrayıla, Füzuliyə, Suqovuşana, Zəngilana, Qubadlıya sancdığı üçrəngli bayrağımızı tezliklə Şuşada, Laçında, Qarabağda dalğalandıracağımıza əminəm. Biz zəfər çalacağıq!

**Əsgər Xıdır Kazımov:**

- Uşaq yaşlarımdan başı bəlalı Qarabağımızdan çox şeylər eşitmişəm. Yurdundan didərgin düşən həmvətənlərimiz haqqında dərsliklərdə oxumuşam, başlarına gətirilən müsibətləri videogörüntülərdə izləmişəm. Qəlbimdə düşmənə qarşı hər zaman nifrət olub. Hər zaman istəmişəm ki, əzəli torpaqlarımızın işğaldan azad olunacağı döyüşlərin iştirakçısı olum. Bu gün sevincimin və qürurumun həddi-hüdudu yoxdur. Bu döyüşlərdə düşmən üzərində qazandığımız qələbə, əldə etdiyimiz uğurlar tariximizə qızıl hərflərlə həkk olunacaq. Ürəyi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlı torpaqlarımızı işğalçılardan təmizləmək arzusunda olub. Biz də çoxunun arzusunda olduğu günün iştirakçısı olmaqdan böyük sevinc hissi keçiririk. Sevinirəm ki, xalqımızın dəstəyi, Ali Baş Komandanımızın etimadı ilə bu



gün müqəddəs torpaqlarımızı düşməndən təmizləyənlər sırasında mən də varam. Əminəm ki, Azərbaycan əsgəri döyüşləri uğurla başa çatdıracaq, Ali Baş Komandanımızın inamını, xalqımızın güvəncini tam doğruldacaq. Buradan düşmənə qarşı vuruşan dostlarıma, yaxınlarıma və ümumilikdə Azərbaycan Ordusunun bütün şəxsi heyətinə atəşli salamlarımı çatdırıram. Onlara tariximizin bu mötəbər döyüşündə uğurlar arzulayıram.

Bu gün işğalda olan digər ərazilərimizi düşməndən təmizləmək istəyi bizə əsas stimul verən amillər sırasındadır. Qazanılan uğurlar bizi daha yeni uğurlara səsləyir. Yaşından, rütbəsindən, vəzifəsindən asılı olmayaraq döyüş meydanında hər birimiz bir bütün olub, düşmənin qorxulu yuxusuna çevrildik. Qəsbkarlar bu günləri çətin unuda. Döyüş meydanında öz silahdaşlarını atıb qaçanlar kim, yalvaranlar kim, bir sözlə, düşmən həm fiziki, həm də mənəvi cəhətdən məğlub olub. Onlar ömürlərinin axırlarına qədər bu utancla yaşamağa məcburdurlar. Biz isə həlledici döyüşə hərtərəfli hazırıq. Yaşasın, Azərbaycan əsgəri. Qarabağ Azərbaycandır!

**Əsgər Kənan Əliyev:**

- Düşmən bu gün döyüş meydanında hərtərəfli məğlub durumdadır. İstər silah-sursat, texnika baxımından, istərsə də



əsgərlərin döyüş ruhu baxımından onlar çətin vəziyyətə düşüblər. Tarix də sübut edib ki, ermənilər hər zaman qorxaq və şərəfsiz olub. Gedən döyüşlərdə bunun bir daha şahidi olduq. Döyüş meydanında rəqibinə gücü çatmayan xain xislətli düşmən qüvvələri mülki insanları hədəfə alıb. Ölənlərin arasında körpələr, uşaqlar, qocalar da var. Ermənistan rəhbərliyi öz məkrli niyyətindən əl çəkmir. Bunun da cəzasını döyüş meydanında erməni əsgərləri çəkir. Ordumuz adekvat cavab tədbirləri nəticəsində düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir. Azərbaycan xalqı bilsin ki, düşmən layiq olduğu cavabı döyüş meydanında alır və Ali Baş Komandanımızın qətiyyəti ilə bundan sonra da alacaqdır. Tarixi ərazilərimiz son erməni əsgərindən təmizlənənə qədər silahı yerə qoymayacağıq. Canımızdan keçərik, Vətənimizdən keçmərik. Xalqımız əmin ola bilər ki, bu gün Vətənimiz etibarlı əllərdədir. Müqəddəs amala xidmət edirik. Xalq yoludur, haqq yoludur getdiyimiz bu yol. "Ədalət gec-tez öz yerini tapır", - deyib atalarımız. Bu gün Azərbaycan əsgəri ədaləti döyüşərək bərpa edir. Qısa müddət ərzində ordumuz xeyli uğurlara imza atıb və atmaqdadır.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Muhiddin Mirzəliyev:**

- Nigaran şəhid ruhlarının rahatlıq tapması, Ali Baş Komandanın rəhbərliyi ilə qisasların alınması ən böyük arzumdur. Döyüşlər başlayan gündən hər birimizin qəlbi qələbə eşqi ilə döyünür. Bu döyüşlərdə erməni işğalçıları şanlı ordumuzdan Aprel döyüşlərində aldığı zərbədən daha ağırını alır və alacaq. Əgər Aprel döyüşlərində ordumuz düşmənin "məğlubedilməz ordu", "Ohanyan sədi" mifini darmadağın etmişdisə, Vətən müharibəsində biz onların ordularını məhv edəcəyik, ümumiyyətlə, ordu anlayışını beyinlərindən siləcəyik.

Əks-hücum əməliyyatı başlanan gündən ordumuz illərdən bəri düşmən işğalında olan strateji əhəmiyyətli yüksəklikləri, doğma şəhər, kənd və qəsəbələrimizi azad edir. Rəşadətli ordumuzun endirdiyi sarsıdıcı zərbələrdən düşmən ordusu özünə gələ bilmir. Ordumuzun igid, qorxubilməz oğullarının göstərdiyi şücaət nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikası sərrast atəşlə məhv edilib. Ağır itkilərə məruz qalan düşmən tarixi torpaqlarımızdakı atəş mövqelərindən geri çəkilərək, döyüş yoldaşlarını və silah-sursatları meydanda qoyaraq qaçmağa başlayıblar. Ordumuza tuşlanan silah və texnikanın onların özünə qarşı istifadə edilməsi isə Azərbaycan əsgərinin döyüş ruhunu daha da artırır.

Müzəffər ordumuzun apardığı bu haqq savaşı qalibiyyətlə sonuclanacaq. Vətənim başdan-başa zəfər bayraqları ilə bəzənəcək. İllərdir yaşanılan yurd-yuva, doğma ocaq, Vətən həsrəti bitəcək. Böyük Qayıdış başlanacaq. Qələbə Azərbaycanındır!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Tahir Abbasov:**

- İllər ötəcək, nəsillər dəyişəcək, amma igid, cəsur oğulları-



mızın ərazi bütövlüyünü bərpa etdiyi, cənnətimiz olan Azərbaycan yaşayacaq. Vətən torpağının bir qarışını canından əziz bilən övladlarının sayəsində yaşayacaq. Yaşayacaq ki, gələcək nəsillərə Əlifdən, İlqardan, Yusifdən, Mübarizdən, Muraddan, Samiddən, Caviddən danışsın. Vətənimizin dilbər guşəsi olan Qarabağda, Şuşada, Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayıldа oğullarının qəhrəmanlıqlarından söz açsın.

Əks-hücum əməliyyatı başlayan gündən ordumuz düşmənin bütün hücum və təxribatlarının qarşısını layiqincə alaraq işğalda olan tarixi torpaqlarımızı azad edir. Gedən döyüşlərdə düşmən ordumuzun gücünə şahid olur. Anlayır ki, artıq qarşısında 90-cı illərin pərakəndə ordusu yoxdur. Bu gün ermənilər vahid komandanlıqdan idarə olunan, güclü, hazırlıqlı, ən müasir silah və texnikatla təmin olunan ordu ilə üz-üzədir. Bütün bunlarla yanaşı, qazanılan qələbələrin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhu dayanır. Qələbə əzmi ilə döyüşən oğullarımızın qazandıqları qələbələr düşmənə bir mesajdır. İşğalda olan tarixi Azərbaycan torpaqlarının son qarışına kimi azad ediləcəyinə, nahaq tökülən qanların qisasının alınacağına ünvanlanmış bir mesaj.

Güclü dövlətin qarantı onun tam hazırlıqlı ordusudur. Bu gün ordumuz bütöv Azərbaycan naminə bütün güc və qüvvəsini səfərbər edib. Şəxsi heyətin döyüş ruhu çox yüksəkdir. Xalqın dəstəyindən güc alan, Ali Baş Komandanına arxalanan Azərbaycan Ordusu tezliklə qələbə çalacaq.

(Ardı 5-ci səhifədə)

# “Biz bu gün tarixi ədaləti bərpa edirik”

(Əvvəli 4-cü səhifədə)



**Zabit Niyaməddin Novruzov:**

- Döyüşlər başladığı ilk gündən hər kəs kimi mən də illərdir içimdə boğub saxladığım qisas hissi ilə döyüşlərə atıldım. Şəxsi heyətimlə, döyüş yoldaşlarımla birgə var gücümüzlə düşmən üzərinə şığıdıq. İlkin əks-hücum əməliyyatı zamanı düşmən qüvvələrini darmadağın etdik. Güclü ordumuz qarşısında məğlub olduğunu anlayan düşmən silah-sursatlarını ataraq qaçmağa başlayırdı. Həmin anı, qalibiyyət sevincini sözlə ifadə etmək çətindi. Onu, ancaq yaşayanlar bilər. Çox xoşbəxtəm ki, əzəli torpaqlarımızın azad olunmasında kiçik də olsa mənim də payım var. Bu gün Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərində və bir çox kəndlərimizdə artıq Azərbaycan bayrağı dalğalanır. Arzu edirəm ki, qısa zaman ərzində işğalda olan bütün torpaqlarımızı düşməndən azad edək. Xalqımızın Vətən həsrətinə son qoyaq. Danılmaz faktdır ki, bu gün qaçqın və məcburi köçkünlərimiz ölkə başçımızın xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu diqqət və qayğını daim öz üzərində hiss edən məcburi köç-



künlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində tezliklə doğma yurd-yuvalarına qayıdacaqları günün uzaqda olmadığına əmindirlər. Biz hərbçilərin də borcudur ki, Ali Baş Komandanımızın əmri ilə xalqımıza Böyük Qələbə sevincini yaşadaq, atababalarımızın doğma yurd-yuvalarını düşmən işğalından azad edək. O gün artıq uzaqda deyil. Tezliklə əzəli torpaqlarımızda bir nəfər də olsun erməni əsgəri qalmayacaq. Rəşadətli ordumuz işğalda olan bütün torpaqlarımızı azad edəcək, şanlı Azərbaycan bayrağını Şuşada, Laçında, Kəlbəcərdə dalğalandıracaq.

**Əsgər Cavid Hacıyev:**

- Mənfur qonşularımız illər əvvəl xalqımıza xəyanət etdi. Nizami ordunun olmamasından istifadə edən düşmən öz havadarlarına arxalanaraq silahsız əhalini, uşaq-yaşlı demədən atəşə tutdu, doğma ev-eşiklərindən didərgin saldı. Sağ qalanlar illərdir məcburi köçkün adını üzərlərində daşımaq məcburiyyətiylə yaşadılar. Cari ilin 27 sentyabr tarixində yenə də düşmən ordusu təxribata əl atdı. Bu təxribatın qarşısı əks-hücum əməliyyatı ilə ordumuz tərəfindən qətiyyətlə alındı. Keçirilən əməliyyatın iştirakçısı olmaq bir əsgər kimi məni çox sevindirir. Qısa zamanda böyük uğurlara imza atdıq. Artıq bir neçə şəhər və kəndlərimizi düşmən işğalından azad etdik. Hər gün daha da ruh yüksəkliyi və qətiyyətlə doğma Qarabağımıza doğru irəliləyirik. Xidmətimiz zamanı komandirlərimizin bizlərə öyrətdikləri hərbi bilikləri bu gün uğurla döyüş meydanında düşmənə qarşı tətbiq edirik. Düşmən qüvvələri güclü ordumuz qarşısında məğlub olacaqlarını anlayıb geri çəkilirlər. Aparılan əməliyyatlar zamanı düşmənin atıb qaçdığı silah-sursat, zirehli texnika və avtomobillərini ələ keçiririk. Qazanılan qələbələr hər birimizdə Böyük Qələbəyə doğru daha inam və qətiyyətlə irəliləməyimizə imkan yaradır. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizn qanı yerdə qalmır, qalmayacaqdır. Hər birinin qisasını mənfur düşməndən alırıq. Tezliklə müzəffər Azərbaycan Ordusu əzəli torpaqlarımızın hər bir guşəsinə üçrəngli bayrağımızı sancacaq. O yerlərdə yenidən xalqımız məskunlaşacaqdır. Gözəl Şuşamızda, Cıdır düzümüzdə toylar, bayramlar qeyd olunacaqdır.

**Əsgər Elxan Cavadov:**

- Dönüb keçmişimizə nəzər salanda igid babalarımızın göstərdiyi qəhrəmanlıq nümunələrinin izinə rast gəlirik. Bilirik ki, yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə əsas şərtdir. Bu gün Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbələrlə tarix yazır. O tarixi salnamələr igid, qorxubilməz oğullarımızın qanı ilə yazılır.

Düşmənin hücumunun qarşısı alınıb, əks-hücum əməliyyatı başlanan gündən ordumuz illərdir düşmən nəzarətində qalan strateji yüksəklikləri, şəhər, kənd və qəsəbələrimizi azad edir. Qüdrətli ordumuzun endirdiyi sarsıdıcı zərbələrdən düşmən ordusu özünə gələ bilmir. Ordumuzun hazırlıqlı döyüşçülərinin göstərdiyi şücaət və rəşadətin nəticəsidir ki, düşmənin ön xəttinin və müdafiəsinin dərinliyində yerləşən xeyli sayda hərbi obyektləri, döyüş texnikaları və canlı qüvvəsi sərrast atəşlə məhv edilib. Ağır itkilərə məruz qalan düşmən tarixi torpaqlarımızdan geri çəkilərək döyüş yoldaşlarını, silah-sursatlarını və meyitlərini meydanda qoyaraq qaçır. Qələbələrimiz Azərbaycan əsgərinin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı, yüksək vətənpərvərliyi sayəsində qazanılır.

Biz ən çətin döyüşlərdən xalqımızın və dövlətimizin bizə olan inamından, dəstəyindən güc alaraq qələbələrlə çıxırıq. Qüdrətli Azərbaycan Ordusunun əsgəri olaraq xalqımızın illərdir həsrətində olduğu Böyük Qələbəyə çox yaxınıq. Tam əminliklə deyə bilərəm ki, Ali Baş Komandanımızın əmri ilə qalib ordumuzun ölkəmizin paytaxtında keçirəcəyi hərbi parada artıq günlər qalıb. Qələbə bizimdir!

**Kiçik çavuş Eldəniz Məmmədov:**

- Xalqımız hər gün cəbhədən qələbə xəbərləri alır. Bu bizi çox sevindirir. Cəbrayıl, Zəngilan, Füzuli və Qubadlı



şəhərləri, Hadrut qəsəbəsi, Suqovuşan və onlarla yaşayış məntəqələrimiz erməni faşistlərindən təmizlənib. Bütün işğal olunan torpaqlarımızı son qarışınadək azad edəcəyik. Böyük Qələbəmizin paradını paytaxtımız Bakıda Azadlıq meydanında xalqımız böyük təntənə ilə keçirəcək. Arzularımızın reallaşacağı gün uzaqda deyil. Soydaşlarımızın torpaq həsrətinə son qoyulacaq. Onlar azad olunan doğma yurd yerlərinə qayıdacaqlar. Düşmən ağ bayraq qaldırıb təslim olur. Erməni əsgəri döyüş meydanından qaçır. Ordumuzun bölmələri düşmənin silah və texnikasını, canlı qüvvəsini məhv edir. Döyüş meydanında qoyub qaçdıqları silah-sursat, döyüş texnikaları bölmələrimiz tərəfindən ələ keçirilir. Torpaqlarımız azad olunduqca bir daha erməni vəhşiliyinin, erməni vandalizminin şahidi oluruq. Yaşayış binalarını, evləri, məzarlıqları, tarixi abidələri dağıdıblar, bütün yaşıllıqları məhv ediblər. Düşmən işğalından azad olunan bütün torpaqlarımıza yenidən həyat qayıdacaq. Xalqımız buna tam əmindir. Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun zəfər yürüşü davam edir. Prezidentimizin, Ali Baş Komandanımızın ətrafında sıx birləşən, ordumuzun ilk gündən yanında olan xalqımızın gücü, dəstəyi bizi Böyük Qələbəyə aparır. Zəfər bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun, rəşadətli Azərbaycan Ordusuna!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yaqub Yaqubov:**

- Sentyabrın 27-dən başlayan ordumuzun uğurlu əks-hücum əməliyyatında ilk gündən bizim şəxsi heyətimiz də fəal iştirak edir. Komandirlərimizin əmr və tapşırıqlarını qətiyyətlə yerinə yetiririk. Düşmənin atəş nöqtələri tərəfimizdən susdurulur. Bu döyüşlərdə erməni qəsbkarları yüzlərlə canlı qüvvəsini, döyüş texnikasını itirib. Yenilməz Azərbaycan Ordusu Ali Baş Komandanının rəhbərliyi altında inamla irəliləyir. Yüksəkliklər, kəndlər, yaşayış məntəqələri, şəhərlər artıq bir-bir erməni faşistlərinin işğalından azad olunur. Azad olunan torpaqlarımızda üçrəngli bayrağımız dalğalandıqca biz çox qürurlanırıq. Tezliklə digər işğalda olan ərazilərimizə də üçrəngli bayrağımızı sancacağıq. Şuşamız, Xankəndimiz, Laçınımız və digər rayonlarımız da erməni işğalçılarından təmizlənəcək. Erməni vandalları işğal etdikləri ərazilərimizi darmadağın edib, viran qoyublar. Torpaqlarımız tamamilə azad olunanadək döyüşümüzü davam etdirəcəyik. Son damla qanımızadək döyüşüb erməni faşistlərini məhv edəcəyik. Bizim Mübariz, Fərid kimi oğullarımız düşməni məhv edərək şəhidlik zirvəsinə ucalıblar. Məkanları cənnət olsun. Biz də onların davamçılarıyıq. Şəhidlərimizin qisası alınır. Onlar Vətənimizin ərazi bütövlüyü uğrunda əziz canlarından keçdilər. Qələbə bizimdir! Biz Böyük Qələbənin əsgərləriyik!

**Gizir Fəxri Hüseynli:**

- Hər bir uğuru ilə qürur duyduğumuz bənzərsiz inkişaf yolu keçən Azərbaycan Ordusu bu gün dünyanın güclü orduları sırasında layiqli yerini tutub. Azərbaycan Ordusunun son illərdə inanılmaz dərəcədə dəyişdiyini, eyni zamanda, onilliklərə bərabər inkişafa nail olduğunu hazırda hər kəs etiraf edir. Həmin inkişafın nəticəsidir ki, ordumuz sentyabrın 27-



dən başlayan əks-hücum əməliyyatından keçən müddət ərzində Füzuli, Zəngilan, Cəbrayıl və Qubadlı şəhərlərini, Hadrut qəsəbəsini və onlarla yaşayış məntəqələrimizi azadlığa qovuşdurub. Biz artıq Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun qələbəsini labüd, qaçılmaz, dönməz proses kimi qəbul edirik. Torpaqlarımızın azadlığını xalqımızın 30 ildən sonra əldə etdiyi haqqı kimi dəyərləndiririk.

Bu gün torpaqlarımızın 20 faizinin işğal olunması bizi narahat etməyə bilməzdi. Digər bir tərəfdən isə ona görə rahatıq ki, Vətəni qorumağın önəmini anlayan, onu qorumağı amalına çevirən, qorumaqla yanaşı, torpaqlarımızı işğaldan azad edərək xalqına sevinc bəxş edən hərbi qulluqçularımız - Azərbaycan Ordusunun şərəfli zabit və əsgərləri var. Azərbaycan xalqı inanır ki, torpaqlarının keşiyində dayanan oğullar onun müdafiə qalasıdı və torpaqlarının tezliklə reallaşacaq azadlığının təminatçısıdı.

Bu gün ordumuz müharibə meydanında düşmənlə üzüzədi. Belə bir məqamda ordumuz üçün hər gün sınaq var. Ali Baş Komandanımızın rəhbərliyi ilə bu sınaqdan tezliklə çıxmağın, Böyük Qələbənin tarixini yazmağın vaxtıdır.